*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 avqust 2018-ci il № 62 (2278) Qiyməti 25 qəpik


## Aktauda Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı keçirilib



*Avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə toplantısında iştirak edib.*

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi, Rusiya Prezidenti Vladimir Putini, İran Prezidenti Həsən Ruhanini və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovu qarşılayıb. Sonra V Zirvə toplantısında iştirak edən dövlət başçılarının geniş tərkibdə iclası olub və sənədlərin imzalanması mərasimi keçirilib. Toplantıda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzalayıblar.

Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər - Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol, Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş, Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Saziş, Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş və sərhəd xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokol imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında çıxış edib. Göstərilən qonaqpərvərliyə və V Xəzər Sammitinin yüksək səviyyədə təşkilinə görə Nursultan Nazarbayevə təşəkkürünü bildirən Ölkə Prezidenti qeyd edib ki, Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir və ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir.

Prezident İlham Əliyev V Zirvə toplantısında çıxışı zamanı Azərbaycanın regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işinə dəyərli töhfə verdiyini də vurğulayıb. "Azərbaycan regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz dəyərli töhfəsini verir. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti regional təhlükəsizlik üçün böyük təhdid doğurur. Ermənistanın işğalı nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarının təxminən 20 faizi işğal olunmuş, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan tərəfindən xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir çox aparıcı beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar və qətnamələr qəbul etmişlər. Bu sənədlər münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edir. BMT Təhlükəsizlik Şurası 20 ildən artıqdır ki, münaqişə ilə bağlı 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Bu qətnamələr öz qüvvəsini itirməyib. Lakin Ermənistan bu qətnamələrə əməl etmir, beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozur. Ermənistan işğal olunmuş torpaqlarda qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirməyə çalışır. Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycan xalqının çoxsaylı tarixi, memarlıq və dini abidələrini məhv etmişdir. İşğal edilmiş Dağlıq Qarabağ və onun ətrafındakı 7 digər rayon tarixi və əzəli Azərbaycan torpağıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın bütün dünya ölkələri tərəfindən tanınmış ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır".

Sammitdə çıxış edən İran Prezidenti Həsən Ruhani, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Zirvə görüşünün əhəmiyyətinə toxunaraq onun Xəzəryanı ölkələr arasında əməkdaşlığın daha da inkişafına güclü təkan verəcəyini, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin dərinləşməsinə xidmət edəcəyini bildiriblər.

**AZƏRTAC-ın materialları əsasında**

# “Beynəlxalq Ordu Oyunları-2018” yarışlarının təntənəli bağlanış mərasimi keçirilib





Hər tədbirin öz mahiyyəti var. Dövlətlər arasında münasibətlərin daha da yaxınlaşmasına xidmət edən tədbirlərin açılış mərasimi də, gedişi də, nəticələri və bağlanış mərasimi də həmişə maraqla izlənilib. Bu baxımdan ənənəvi "Beynəlxalq Ordu Oyunları" da istər iştirakçı dövlətlərdə, istərsə də dünya ictimaiyyətində xoş təəssüratlar yaradır. Bu oyunlar orduların bacarığını aşkarlamaqla bərabər, iştirakçılar arasında səmimi münasibət yaradır, bu münasibətləri dərinləşdirir.

"Beynəlxalq Ordu Oyunları-2018" yarışlarında Azərbaycan hərbçiləri də iştirak etdi. Bu, ordumuza və dövlətimizə ehtiram baxımından olduqca gərəklidir. Azərbaycan təmsilçiləri builki yarışlarda da uğurla çıxış etdi. Yarış iştirakçının istər fiziki, istərsə də mənəvi hazırlığının sınağıdır. Azərbaycanı təmsil edənlər bu sınağı dəf edərək uğur qazanıblar.



"Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının təntənəli bağlanış mərasimində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov da iştirak edib.

"Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində komandalarımız Bakıda keçirilən "Dəniz Kuboku"nda, Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" və Belarusda "Snayper həddi" müsabiqələrində də iştirak ediblər. İştirak, həm də təcrübədir. Son illərdə həyata keçirilən irimiqyaslı islahatlar nəticəsində nizami ordu kimi kifayət qədər yüksək səviyyədə formalaşan ordumuzun şəxsi heyəti bu qəbil yarışlarda da müəyyən təcrübələr əldə edir ki, bu təcrübələr də ordunun döyüş qabiliyyətinin yüksəldilməsində müəyyən əhəmiyyətə malikdir.

Hərbçilərimiz İranda keçirilən "Dərinlik" və Rusiyada təşkil olunan "Qoşun kəşfiyyatı əlaçıları" müsabiqələrində Azərbaycanı müşahidəçi qismində təmsil ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır", Bu fikirlə necə qürurlanırıqsa, ordumuzun müxtəlif beynəlxalq yarışlarda uğurla təmsil edilməsindən də elə qürurlanırıq. İnanırıq ki, gələcəkdə əldə ediləcək uğurlarımız daha çox olacaqdır...

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistanın növbəti təxribatı nəticəsində hərbi qulluqçumuz yaralanıb

Ermənistan Respublikası Naxçıvan istiqamətində məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirməyə davam edir.

Avqustun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası istiqamətində düşmən tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulması nəticəsində hərbi qulluqçumuz İsrəfilov Samit Ədalət oğlu yaralanıb. Hərbi qulluqçuya dərhal tibbi yardım göstərilib, həyati təhlükə yoxdur.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan-Ermənistan dövlət sərhədində baş verənlərə görə məsuliyyət tam şəkildə Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Azərbaycan Ordusunun bölmələri dövlət sərhədində əməliyyat şəraitinə tam nəzarət edir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*14 avqust 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 88 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Berdavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli və Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Seyidli, Sarıcalı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Dəniz Kuboku-2018” beynəlxalq müsabiqəsində iştirak etmiş xarici dövlətlərin hərbi gəmiləri Bakı limanını tərk edib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsində iştirak etmək üçün ölkəmizdə olan İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin "Cövşən", "Peykan" raket katerləri, Rusiya Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının "Volqodonsk" və "Mahaçkala" kiçik artilleriya gəmiləri, eləcə də "SB-45" xilasetmə yedək gəmisi və Qazaxıstan Respublikası Hərbi Dəniz Qüvvələrinin "Manqistau" raket-artilleriya gəmisi avqustun 12-də Bakı limanını tərk edib.



# Müdafiə Nazirliyinin nümayəndələri yaradıcılıq müsabiqəsinin mükafatına layiq görülüb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində keçirilən yaradıcılıq müsabiqələrində fəal iştiraka görə Müdafiə Nazirliyinin nümayəndələri Mustafazadə Xəyyam Xəqani oğlu və Vəliyev Anar Yaqub oğlu Rusiya Federasiyasının Müdafiə Nazirliyi tərəfindən "Təşəkkür" və "Fərman" ilə mükafatlandırılıb.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrinin solisti X.Mustafazadə iştirakçı komandalar arasında rus dilində vokal əsərinin ən yaxşı ifaçısı adını qazanaraq müsabiqədə birinci yerə layiq görülüb.

*Ön xətdən reportaj*

# Böyük Qələbənin ovqatıdır bu!..

*Abbas Səhhətin "Vətən" şeiri hamımızın əzbərindədi... Vətənə ürəyinin gözüylə baxanlar görür ki, inanır ki, Vətən əsgər ürəyindən başlayır, Vətənin sərhədləri əsgər ürəyinin hüdudlandırdığı yerdi, Vətənini sevənlər üçün dan yeri o hüdudlarda sökülür...*

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi kimi, ən müasir, ən mürəkkəb texnikaları da idarə edən əsgərdi. Ona görə də respublikamızda orduya diqqət və qayğının əsasında əsgərə diqqət və qayğı dayanır. Əsgərin döyüş hazırlığı ordunun gücü deməkdi, döyüş hazırlığının yüksək mənəvi-psixoloji hazırlıqla tamamlanması - ordunun qüdrəti. Azərbaycan Ordusu belə ordudu. Ön xəttə bu düşüncələrdən dikələn ovqatla gəlmişəm. Bu ovqatın adı Vətəndi. Əsgərlərimizlə bu ovqatın cazibəsində kəlmələşəcəyik. Yenə hər kəlmədə Vətən, torpaq, qələbə olacaq, yenə "İşğalın sonuna az qalıb, Vətən!" nidasını bu ovqatın üverturası biləcəyimizə zərrəcə şübhəm yoxdu...

Yayın istisində-bürküsündə, qışın şaxtasında-sazağında döyüş növbətçiliyi aparanların - duruşunu, yerişini, baxışını, döyüş əzminin, qələbə ruhunun ifadəsi bildiyim əsgərlərin əhatəsində olanda kimsə istini-bürkünü, şaxtanı-sazağı hiss etmir. Bu, Vətən sevgisinin qüdrətidi. Səngərlərə bu ovqatla çatmışıq...

Ana Vətən söz birləşməsinin mahiyyəti yaşam fəlsəfəmizdirsə, ayları-illəri bu fəlsəfənin işığında yaşayırıqsa, bu işığın səngərlərdən uğur yoluna - Böyük Qələbəyə aparacaq yola düşəcək işıq biliriksə, biz də əsgərik. Əsgər deyiliksə, layiqli vətəndaş deyilik. Bu qənaət səngər qənaətidi, səngərli qənaətdi, səngərləri sərhədlərə köçürmək amalıyla xidmət edənlərimizin Vətən sevgisinə ehtiramın qənaətidi. Bu düşüncələrdən boy göstərən ovqatla səngərdəyik. Niyəsə, verəcəyim sualı qabaqlayası cavab eşitmək keçir könlümdən. Belə də olur.

- Əsgərlərimizin hamısının istəyi, istək azdı, arzusu birdi: Böyük Qələbənin əsgəri olmaq!, - mayor Ramin İbrahimov belə deyir, qürurla döyüş növbətçiliyi aparanlara baxır. Bu baxışa sığınan sevgini sezmək çətin deyil. Hamımız - həmkarım Mübariz Musayev də, mən də, əsgərlər də bu ovqatın cazibəsinə düşürük. Bu ovqat 1994-cü ilin yanvarından - Horadiz ovqatından, 2016-cı ilin aprelindən - Lələtəpə, Bayraqtəpə qələbələrindən, 2018-ci ilin mayından - Günnüt zəfərindən başlanan ovqatdı və Böyük Qələbənin ovqatına aparır. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elnur Musayev arzuladığımız inamla deyir ki, əsgərlərimizin döyüş hazırlığı da, mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırıq.

Zabitlərin də, əsgərlərin də bizə tanış, bizə doğma, bizə munis ovqatında 2016-cı ilin aprel döyüşlərinin, döyüşlərdən sonrakı gözəlim ovqatın eynini görürük. Belə məqamlarda Yusif Mirzəyev deyərdi: "Ürəyim dağa döndü..."...

2016-cı ilin aprel döyüşləri, qazanılan qələbə heç zaman unudulmayacaq. Səngərdə gördüyüm, görüb də könlümə köçürdüyüm ovqat Lələtəpədə, Bayraqtəpədə, Günnütdə



dalğalanan bayraqlarımızın qalibiyyət ovqatıdı, bu ovqat Cocuq Mərcanlının gözdoyduran, könülaçan görkəminin ovqatıdı, bu ovqat iyunda Bakıda ordumuzun 100 illiyinə həsr olunan hərbi paradın möhtəşəmliyinin ovqatıdı, bu ovqat Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin möhtəşəm paradda qətiyyətlə, inamla dediyi "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək" kəlamın ovqatıdı...

Komandirin təqdim etdiyi əsgərlərlə kəlmələşirik. Səmimi mükalimələşmədi. Eşitdiklərim səngərə gələli cazibəsinə düşdüyüm ovqatı o qədər incəliklə tamamlayır ki! Bu tamamlamanı Ana Vətən söz birləşməsinin mahiyyətinə vəfa borcu, əsgərlərin hərbi parad haqqında dediklərini həmin günün, həmin günün timsalında günlərimizin, yaxın gələcəyimizin ovqatı bilirəm:

- Ali Baş Komandanın dediyi paradı yaxın gələcəkdə izləyəcəyik, bəlkə də iştirakçısı olacağıq, - mayor Ramin İbrahimov belə deyir. Bu, dönməz inamdı, güvəncdi, hərbi xidmətə, deməli, dövlətə sədaqətdi. Hamımız bu ovqatla qarşı səmtə baxırıq. "Yayın yay günü qarşı tərəfdə bomboz buludlar çaxnaşır. Düşmənin sığındığı səngərlərin göylərində dolaşan bulud topaları sizin - Azərbaycan əsgərinin qəzəbidi. Bineyi-qədimdən belədi: dolan bulud boşalıb..." - deyirəm. Mayor Ramin İbrahimovun əli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elnur Musayevin çiyninə enir:

- Bayaq sözarası dediyiniz şeiri elə bil bizim əsgərlərə yazıbsınız. Onların hər biri həqiqətən Vətən istəyərsə, Vətənə görə şəhid olmağa hazırdı. Vətəni belə sevirlər, bu sevgiylə xidmət edirlər. Hər biri...

Səbirsizlik edirəm:

- ...Mübarizdi, Samiddi, Rafudu, Çingizdi...

- ...Ali Baş Komandanın əmriylə döyüşə hazırdı. Döyüşlərdə qələbə qazanacağıq, torpaqlarımızı işğaldan azad edəcəyik. Qəzetinizdə bir məqalə oxumuşdum: "Səngərləri sərhədlərə köçürəcəyik!". Gecələrin səhərini bu ovqatla açırıq...

Səngər bizə könlümüzü təlləndirən belə gözəl ovqat yaşadır...

Çisək başlayır. Yayın yay günü bu ayamı gözləmirdik. "Təbiətin yağışını yaxın vaxtlarda Azərbaycan əsgərinin qazanacağı qələbədən sonra yağacaq aydınlıq yağışının başlanğıcı bilirəm", - mayorun ovqatı qəlbimdən keçənlərin ifadəsi olan bu ovqata qarışır. Bu, səngərin qüdrətidi, səngərdə döyüş növbətçiliyi aparanların qətiyyətinin qüdrətidi.

Mayor Ramin İbrahimovun əlinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elnur Musayevin çiyninə enməsi, bu incə sevgi, güvənc, ehtiram teması (bu temasın səmimiliyini bir azdan daha əhatəli, daha şəbəkəli görəcəyik) başlanğıcı aprel zəfəri olan ovqatın davamıdı, bu ovqat Böyük Qələbəyəcən daha ecazkar, daha möhtəşəm olacaq, şübhəsiz. Bu təmasda etibar, inam, ehtiram görürəm. Bu inam dövlətə, dövlətçiliyə sevginin inamıdı, bu ehtiram hərbi anda sədaqətin ehtiramıdı. Belə dəyərləndirilən əsgərlər, şübhəsiz ki, Ali Baş Komandanın əmrini qələbəylə tamamlayacaq, məmləkətə arzuladığımız ovqatı yaşadacaq. Əminliklə deyəcəyik ki, bir də sərhədlərimizin bu üzündə səngərlər olmayacaq. Səngərə gələli könül xoşluğuyla yaşadığımız ovqat bu əminliyin ovqatıdı. Əsgər Ziyəddin Xanəmirovun dediklərini də bu ovqatın fonunda dinləyirik:

- Torpaqlarımızı işğaldan biz azad edəcəyik. Bizdən sonra əsgərlərimiz dövlət sərhədlərimizdə xidmət edəcəklər!..

Bu ovqatın adı - Vətəndi, közü - Vətəndi, odu - Vətəndi! "Bu ovqatın əsgəri olmaq da səadətdi, Vətən!" demək keçir könlümdən. Deyirəm. Əsgər Rövşən Əliyevin nəsə demək istədiyini mən də sezirəm, komandiri də. Əsgər komandirinin icazəsiylə könlünü coşduran, bir azdan könlümüzü coşduracaq kəlmələr deyir:

- Hərbi xidmətə Astara rayonundan çağırılmışam. Aprel döyüşlərində məktəbliydik. Döyüşlərdə iştirak edə bilmədik. Mən də, xidmət yoldaşlarım da 8 aydı aprel ovqatıyla, qələbə amalıyla xidmət edirik. Qələbəni qalib əsgər kimi yaşamaq istəyirik...

Azərbaycan Ordusunun bütün əsgərlərinin belə düşündüyünə, bu amalla xidmət etdiyinə necə inanmaya bilərsən?! Belə kəlmələri bütün döyüş bölgələrində tərxis olunmasına sayılı günlər qalan əsgərlərdən də eşitmişəm, xidmətə təzə başlayan əsgərlərdən də. Bunları Azərbaycan əsgərinin döyüş ruhu, qələbə əzmi bilmişəm. Bu qənaət ömrümə səngərli anlardan hopub. Hər dəfə səngərlərə bu qənaətin zəmanətiylə gəlmişəm...

Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən kütləvi vətənpərvərlik tədbirlərindən birinin ("Hər birimiz Vətən üçün bir əsgərik") mahiyyəti indi də düşüncələrimin axarını özünə çəkməkdədi. Həmin tədbirdə şəhid atasının tövsiyələri Ata nəsihəti kimi dinlənilmişdi:

- Hər birinizi oğluma qardaş bilirəm. Şəhid qardaşlarınızın murazını yerinə yetirəcəyinizə inanıb gəlmişəm. Bu inam Ali Baş Komandana inamdı, Müdafiə Nazirliyinin rəhbərliyinə inamdı, sizin Hərbi anda sədaqətinizə inamdı, bayrağımızı Cıdır düzündə dalğalandıracağınıza inamdı...

Şəhid atasının kəlmələri tədbiri coşdurmuşdu. Hər dəfə səngərlərdə söhbətləşəndə əsgərlərə bunu da xatırladıram və

- O möhtəşəm kütləvi vətənpərvərlik tədbirində şəhid atasının dediklərini şəhid atasını ata bilən əsgərlərin bizə yaşadacaqları qələbə ovqatının işığı bilmişdim. Sizin ürəyinizdən düşən işıq o ovqatı daha da nurlandıracaq, - deyirəm. Əsgərlərin hamısı əmr alıbmış kimi yayın yay günü arxayınlıqla ələnən yağış damlalarının içindən bayaqdan bəri boz buludlar dolaşan səmtə baxır. Hamısının əli avtomatın qundağını "əzir". Bu, döyüş əzmidi, döyüş əzminə söykəkli qələbə ruhudu. Bu ovqatı Azərbaycan Ordusunun şəxsi heyətinin hər an yaşadığına, bu ovqatla xidmət etdiyinə ictimaiyyət dönməzliklə inanır, - deyirəm. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elnur Musayevin dedikləri mənə 2016-cı ilin aprelində Lələtəpədə gizir Tahir Misirxanovdan eşitdiklərimi xatırladır:

- Hərbi xidmət Vətən qarşısında borc ödəməkdir. Məni yenidən hərbi xidmətə sizin dediyiniz o ruh gətirib. Ali Baş Komandanın əmriylə döyüşdük. Qələbə qazandıq. Bu, qazanacağımız qələbənin başlanğıcıdı. Bu qələbə ordumuzun gücünü təsdiqləməklə bərabər, xalqın ruhunu, qələbəyə inamını kükrətdi. O döyüşlərdə xalqın ruhunu gördük, bizə güvəncini gördük, minlərlə qocanın, yeniyetmənin, müharibə əlilinin döyüşlərdə iştirak etmək istəyi ordu ilə xalqın birliyinin təsdiqi idi. Biz bu inamı qələbəyə yetirdik. Yaxın vaxtlarda Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik.

Tahir Misirxanov kimi yenidən hərbi xidmətə qayıdan Elnur Musayev də belə deyir. Bu eyni düşüncə qənaətimin dönməz təsdiqinə dönür: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətlə dediyi kimi, "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır". Azərbaycan Ordusunun hərbi qulluqçularının Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqəti kimi, Tahirlərin, Elnurların düşüncələri də bu gücün tərkib hissələrindəndir.

Səngərdə yaşadığım ovqat "Horadiz halayı"nın ovqatıdı.

Bu ovqat "And içirik"in ovqatıdı...

Bu ovqat Böyük Qələbəyə köklənən (kökləyən) ovqatdı...

Bu ovqat işğala oxunan hökmün ovqatıdı...

"İşğalın sonuna az qalıb, Vətən!" deyirəm. Döyüş növbətçiliyinə gedən əsgərlər də, döyüş növbətçiliyindən qayıdan əsgərlər də "İşğalın sonuna az qalıb, Vətən!" deyir. Yerə-göyə inandığım kimi inanıram ki, dənəbir-dənəbir yağan yağış damlalarına bürünən meh bu dönməz qətiyyəti qarşı tərəfə də çatdıracaq....

Güvənclə gəldiyim səngərdən "Böyük Qələbənin ovqatıdır bu!" inamıyla qayıdıram...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

# Hərbi hissələrdə "Açıq qapı" günü və andiçmə mərasimləri keçirildi

*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, avqustun 12-də bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü, eləcə də təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Əlahiddə Ümumqoşun Ordu, hərbi birliklər, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, eləcə də digər hərbi hissələrdə təşkil edilmiş mərasimlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni ifa edildi və tədbir açıq elan olundu. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul etdilər. "Açıq qapı" günü və andiçmə mərasimlərində hərbi hissələrin komandanlığı, şəhid ailələrinin üzvləri, yerli icra orqanları, ictimaiyyət nümayəndələri, veteranlar və əsgər valideynləri iştirak etdilər. Ziyarətçilər, ictimaiyyət, kütləvi informasiya vasitələrinin nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış oldular, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalarına baş çəkdilər, həmçinin mədəni-kütləvi tədbirlərdə iştirak etdilər.*






"N" hərbi hissəsində keçirilən tədbirdə döyüş bayrağı sıra meydanına gətirildi.

Daha sonra gənc əsgərlər təntənəli olaraq Vətənə sədaqət andı içdilər.

Mərasimdə çıxış edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev bildirdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son vaxtlar Azərbaycan Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi, döyüş və mənəvi-psixoloji hazırlığın gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb.

Qeyd edildi ki, 2016-cı ilin aprel döyüşləri və 2018-ci ildə Əlahiddə Ümumqoşun Ordunun bölmələrinin uğurlu əkshəmlə əməliyyatı olan Günnüt zəfəri ilə Azərbaycan Ordusunun hərbi qüdrəti və yüksək döyüş ruhu qarşı tərəfə sübut olunub və düşmənə sarsıdıcı zərbə vurulub. Bununla belə müharibənin hələ bitmədiyi, qarşıda isə uğurlu hərbi əməliyyatlarla Azərbaycanın işğal edilmiş bütün torpaqlarının düşməndən azad ediləcəyi gününün uzaqda olmadığı diqqətə çatdırıldı.

Gənc əsgər Ayxan Məmmədzadə dedi: "Mən ali təhsiliyəm. Təhsilimi əsgərlikdən sonra davam etdirəcəyəm. Bu gün Azərbaycan Ordusunun sıralarında olmaq mənim üçün, eləcə də əsgər yoldaşlarım üçün böyük şərəfdir. Biz fəxr edirik ki, regionun ən güclü ordusunun əsgərləriyik.

Naxçıvanda Günnüt, Qızılqaya yüksəkliklərinin alınması, 11 min hektar ərazinin nəzarətə götürülməsini böyük sevinclə qarşıladıq. Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş möhtəşəm parad isə Silahlı Qüvvələrimizin gücünü həm xalqımıza, həm dünyaya, həm də düşmənlərimizə göstərdi.

Cənab zabitlər, əziz valideynlər, əsgər qardaşlarım hamınız əmin ola bilərsiniz ki, yolumuzu gözləyən yurd yerlərimizdə qələbə bayrağını biz ucaldacaq, xalqımıza qələbə sevinci bəxş edəcəyik".

Təntənəli mərasimdə çıxış edənlər gənc əsgərlərə nümunəvi olmağı, nizam-intizamlı xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olmalarını tövsiyə etdilər.

Çıxışlardan sonra Vətənə sadiqlik andı içən gənc əsgərlər nizami addımlarla tribuna qarşısından keçdilər.

* * *

"N" hərbi hissəsində keçirilən tədbirdə çıxış edən polkovnik-leytenant Rəşid Tinayev əlamətdar gün münasibətilə gənc əsgərlərə və onların valideynlərinə xoş arzularını bildirdi. Həmçinin valideynlərə söz verdi ki, övladlarını bacarıqlı döyüşçü, cəmiyyətimizə layiqli vətəndaş kimi yetişdirmək üçün əllərindən gələni edəcəklər.

Hərbi andı qəbul etmiş gəncləri təbrik edən polkovnik Mehman Kərimov qeyd etdi ki, Vətənə sədaqət andı içən övladına baxıb qürurlanan ataların, duyğulanan anaların da ən unudulmaz günüdür bu gün.

- Bu əlamətdar gündə gənc əsgərlər Azərbaycan Ordusunun sıralarına daxil olaraq Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqlarına and içdilər. Hərbi and bütün hərbi qulluqçular üçün Vətən qarşısında dönməz sədaqətin ifadəsidir, pozulmaz qanundur. Azərbaycanın dahi rəhbəri Heydər Əliyev hərbi xidmətə yüksək qiymət verərək demişdir: "Orduda xidmət etmək Azərbaycanın hər bir vətəndaşının şərəfli borcudur. Müstəqil Azərbaycan Respublikasının Milli Ordusunda xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır. Fəxr edə bilərsiniz. Fəxr etməlisiniz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir".

Polkovnik İlqar Lətifov da Hərbi andı qəbul etmiş əsgərləri və yaxınlarını əlamətdar gün münasibətilə təbrik etdi. Zabit ordumuzun yüksək döyüş hazırlığından söz açaraq əsgərlərə dərslərində tələbkar və məsuliyyətli olmağı tövsiyə etdi. "Əziz valideynlər, övladlarınız bizlərə əmanətdir. Onlar doğma ordumuzun döyüşçüləri, Vətənimizin müdafiəçiləridir. Təlim dövründə onlara silah və texnikalardan, döyüş hazırlığından və digər hərbi fənlərdən dərslər keçiriləcək, övladlarınız bacarıqlı, cəsur, qorxmaz Vətən müdafiəçiləri kimi formalaşacaq".

Sumqayıt şəhər Yeni Azərbaycan Partiyasının nümayəndəsi Vəzirxan Ənsərov çıxışında dedi.

- Bu gün həm gənclər, həm də valideynlər üçün əlamətdar gündür. Vətənin bütövlüyünü, suverenliyini, müstəqilliyini qorumaq şərəfli vəzifədir. Bu müqəddəs vəzifə sizlərə həvalə olunur. Ordumuz regionun ən güclü ordusudur və işğal altında olan torpaqlarımızı müharibə yolu ilə azad etməyə qadirdir. Bunu aprel döyüşləri və Naxçıvan əməliyyatları zamanı düşmən üzərində inamlı qələbəmizlə bir daha sübut etdik. Xalq olaraq Azərbaycan əsgərinə sonsuz güvənir, hər birinizlə qürur duyuruq. Böyük Qələbə gününün yaxın vaxtlarda olacağına inanırıq.

Əsgər atası Əkbər Ramazanov və əsgər babası Əsəd Sadıqov da sevincini tədbir iştirakçıları ilə bölüşdü. Bildirdilər ki, Vətənə, xalqa məhəbbət və sədaqət hər bir azərbaycanlının mənəvi dünyasına xas olan ən böyük xüsusiyyət və ən güclü hissdir. "Övladlarımızın əsgər olmasından iftixar hissi duyuruq. Bir valideyn kimi övladımıza və onun timsalında hər bir əsgərə deyirik ki, Vətən səcdəgahımızdır, sığınacağımızdır. Sizə Vətən torpaqlarını yağılardan qorumaq kimi müqəddəs vəzifə tapşırılıb. Torpaqlarımızı göz bəbəyi kimi qoruyun, bu yolda canınızı fəda etməyə hər an hazır olun.

Tədbirdən sonra valideynlər övladları ilə görüşüb, hərbi hissənin sosial şəraiti ilə yaxından tanış oldular, yeməkxanada birgə əsgər yeməyi yedilər.

* * *

Müdafiə Nazirliyinin "N" hərbi hissəsində də "Açıq qapı" günü və gənc əsgərlərin andiçmə mərasimi keçirildi.

Tədbiri giriş sözü ilə açan polkovnik Saleh Kələntərov gənc matrosları və onların valideynlərini təbrik etdi və bu günün hər bir əsgər və əsgər valideyni üçün əlamətdar gün olduğunu vurğuladı. Polkovnik S.Kələntərov valideynlərə bildirdi ki, hərbi hissədə matrosların gündəlik fəaliyyətinin təşkili üçün hər cür şərait yaradılıb. Matrosların üzərinə düşən əsas vəzifələrin nizam-intizamlı olmaq, komandirlər tərəfindən verilən tapşırıqların vaxtında və dəqiqliklə yerinə yetirmək olduğunu söyləyən zabit, onlara qarşıdakı xidmət müddətində uğurlar dilədi. O, hər bir əsgərə gələcəkdə valideyn olmağı və övladlarının hərbi andiçmə mərasimində iştirak etməyi arzuladı.

Mayor Eldar Nurəhmədov da öz növbəsində gənc matrosları təbrik etdi və valideynlərə gözaydınlığı verdi. "2018-ci ilin iyul ayında hərbi hissəyə qəbul olunmuş gənc matroslarımız bu gün Hərbi and içərək, Azərbaycan Ordusunda öz vətəndaşlıq borclarını yerinə yetirməyə başlayacaqlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi qayğı və diqqət ordumuzun daha da inkişaf etməsinə təkan vermişdir. Hər birinizə bu güclü ordunun mətin əsgəri olmağı arzu edirəm".



Əsgər anası Validə Nəsirlinin gözlərində keçirdiyi fəxarət hissi sezilirdi. "Oğlum Asif bu gündən ordumuzun tamhüquqlu əsgəridir. Təntənəli andiçmə mərasimində iştirak edən bütün matros və əsgər valideynlərini təbrik edirəm. Hər birimiz üçün duyğulu və şərəfli gündür. Övladım Vətəninə sədaqətlə xidmət edəcəyinin andını içdi. Valideyn üçün bundan qürurverici bir hiss ola bilməz".

**(Ardı 5-ci səhifədə)**

# Hərbi hissələrdə "Açıq qapı" günü və andiçmə mərasimləri keçirildi

(Əvvəli 4-cü səhifədə)

Əsgər atası Malik Nüsrətli çıxışında dedi ki, oğlum ordu sıralarına qoşulacağı günü səbirsizliklə gözləyirdi. Bu gün həm onun, həm də bizim üçün ən yaddaqalan günlərdən biridir. Oğlum İbada və onun xidmət yoldaşlarına qarşıdakı xidmət müddətində cəsur olmağı arzu edirəm".



Gənc matros Abdulla Muradovun babası Didar kişi nəvəsinin andiçmə mərasimində iştirak etmək üçün Xaçmaz şəhərindən gəlmişdi. O da gənc əsgərlərə ürək sözlərini, təbrikini çatdırdı.

Gənc matros Murad Rüstəmovun ordu sıralarına daxil olmağın verdiyi qürurun əvəzsiz hiss olduğunu söylədi.

* * *

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində də "Açıq qapı" günü və gənc əsgərlərin andiçmə mərasimləri keçirildi. Hərbi hissənin sıra meydanında gənc əsgərlər Vətənə sədaqət andı içməsi münasibətilə düzülərək bütün diqqətlərini tribunaya doğru yönəltmişdilər. Əsgər valideynləri və yaxınları, ictimaiyyət nümayəndələri yavaş-yavaş hərbi hissənin ərazisinə daxil olurdular. Budur, artıq tədbir başlayır və hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilir. Gənc əsgərlərin səbirsizliklə gözlədiyi an, Vətənə sədaqət andı içməsi anı başlayır. General-mayor Hikmət Həsənov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə ünvanladığı təbrik məktubunu oxuduqdan sonra əlamətdar gün münasibətilə şəxsi heyəti və əsgər valideynlərini təbrik etdi. "Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusu bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində dünyanın aparıcı güclü orduları sırasındadır. Ordumuzun maddi-texniki təminatı daima güclənir, silahlanmaya ən müasir silah və texnika daxil edilir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, xalqla ordunun birliyi dövləti qüdrətli edir. Bəli, biz aprel döyüşlərində bunun bir daha şahidi olduq. Ordumuzun iki il öncə aprel döyüşlərindəki uğurlu qələbələri bir daha təsdiq etdi ki, bizim güclü ordumuz var, biz Ali Baş Komandanın rəhbərliyi altında düşmən işğalında olan torpaqlarımızı azad etməyə hazırıq."

General-mayor Hikmət Həsənov əminliklə bildirdi ki, biz tezliklə ərazi bütövlüyümüzü bərpa edəcək və işğaldan azad olunmuş torpaqlarımızda üçrəngli Azərbaycan bayrağını dalğalandıracağıq.

Çıxışının sonunda bir daha gənc əsgərləri andiçmə günü münasibətilə təbrik edən general-mayor Hikmət Həsənov onlara uzun ömür, cansağlığı, əsgəri borclarını şərəflə yerinə yetirməyi arzuladı. Ana Vətənimiz Azərbaycanın dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, işğal olunmuş torpaqlarımızın azad olunması kimi müqəddəs işlərində gənc əsgərlərə uğurlar dilədi.



Millət vəkili Elman Məmmədov əsgərləri təbrik edərək onlara müraciətlə dedi ki, siz bu gün Hərbi andı qəbul etməklə Vətən qarşısında borcunuzu yerinə yetirmək üçün tapşırığınızı aldınız. "Siz gənc əsgərlər Vətənə, torpağa sədaqət andı içdiniz. Biz inanırıq ki, doğma Azərbaycanımızın ərazi bütövlüyünü siz təmin edəcəksiniz."

Xalqla ordunun birliyindən, böyük bir inkişaf yolu keçən ordumuzun qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə hazırlığından danışan Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov da əminliklə vurğuladı ki, Azərbaycan Ordusu öz xalqını və dövlətini qorumaq qüdrətindədir. Ordumuzun vətənpərvər əsgər və zabitləri düşmən işğalı altında olan torpaqlarımızı bu gün Ali Baş Komandanın əmri ilə azad etmək qüdrətindədir. Mən hər birinizə qələbə arzulayıram. Arzu edirəm ki, tezliklə işğaldan azad olunacaq torpaqlarımıza qələbə bayraqlarını sancmaq sizə də qismət olsun.

Əsgər valideyni, Qarabağ müharibəsi veteranı Namiq Nəbiyev çıxışında Azərbaycan Ordusunun keçdiyi 100 illik inkişaf yolundan danışdı. "Son illər ordu quruculuğunda görülən işlər Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsidir. Yeni salınan müasir hərbi şəhərciklər və onların hərtərəfli təminatı Azərbaycan Ordusunun günügündən daha da gücləndiyinin göstəricisidir. Biz valideynlər də hərbi hissədə yaradılan yüksək şəraiti görüb övladlarımızdan tam arxayın oluruq. Bütün yaradılan bu şəraitə görə ölkə Prezidentinə, ordu rəhbərliyinə öz dərin minnətdarlığımı bildirirəm. Fəxr edirik ki, ordumuz getdikcə güclənir. Ordumuzun 100 illik yubileyi ilə əlaqədar keçirilən möhtəşəm parad hər bir azərbaycanlını qürurlandırdı. İnanırıq ki, tezliklə ordumuz ərazi bütövlüyümüzü təmin edəcək, qaçqın və köçkünlərimiz ata-baba yurdlarına qayıdacaqlar."

Gənc əsgər Musa Abbasəlizadə bu gün onların həyatında yaddaqalan və əlamətdar bir gün olduğunu dedi: "Biz bu gün Hərbi andı qəbul edərək ana Vətənimizin rəşadətli müdafiəçiləri sırasına daxil olduq. Bu o deməkdir ki, artıq biz də özümüzü doğma Azərbaycanımızın müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində duran Azərbaycan əsgəri adlandıra bilərik. Bu ad nə qədər fəxrlə səslənirsə, bir o qədər də bizim üzərimizə məsuliyyət qoyur. And içdiyimiz kimi, bundan sonra Vətənimizin keşiyində sayıq durmalı, hər an əldə silah onun müdafiəsinə qalxmağa, bu yolda qazi olmağa və şəhidlik zirvəsinə ucalmağa hazır olmalıyıq."





Tədbir gənc əsgərlərin nümunəvi çıxışı və Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə davam etdi.

* * *

"N" hərbi hissəsində tədbiri giriş sözü ilə açan polkovnik-leytenant Siyavuş Mustafayev bildirdi ki, bu gün Azərbaycan Ordusunda əlamətdar bir gündür. "Ordu həyatına qədəm qoyan gənc əsgərlərimiz Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə, Vətən uğrunda döyüşlərə hər zaman hazır olacaqlarına, bu yolda canlarını və qanlarını əsirgəməyəcəklərinə and içdilər. Hərb işini vicdanla öyrənəcəklərinə söz verdilər. İnanıram ki, Hərbi anda həmişə sadiq qalacaqsınız. Vətənə, xalqa başucalığı gətirəcək, Azərbaycan əsgəri adını qürurla daşıyacaqsınız. Şəxsi heyətin sıralarına qatıldıqdan sonra da daim döyüş qabiliyyətinizi artıracaq, vəzifə borclarınızın öhdəsindən bacarıqla gələcək, yurdumuzu göz bəbəyi kimi qoruyacaqsınız. Mən sizə hərb işini dərindən öyrənməyi, komandir-rəis heyətinin əmr və tapşırıqlarını vaxtında, sözsüz və layiqincə yerinə yetirməyi tövsiyə edirəm."

Zabit qeyd etdi ki, bu gün qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarında olan Azərbaycan Ordusu dünyada ən müasir standartlara cavab verə biləcək səviyyədə formalaşmışdır. "Tarix sübut edib ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir. Peşəkar ordunun formalaşması güclü ordu quruculuğu prosesindən keçir. Ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin davam etdirdiyi müdrik siyasət nəticəsində Azərbaycan Ordusu gündən-günə daha da möhkəmlənir, müasir hərb elminin tələblərinə cavab verir və döyüş qabiliyyətini artırır."

Valideynlər adından çıxış edən əsgər Nurlan Məlikovun babası Həsən Gülüşov dedi: "O ordu yenilməz və güclüdür ki, əsgəri düşünmədən Vətən naminə ölümə hazırdır. Vətən anlayışının nə demək olduğunu dərk edən hər bir azərbaycanlının uşaq yaşlarından bir arzusu, bir amalı var. Hərbi mundir geyinərək Vətən uğrunda savaşmaq, torpağa işğaldan azad etmək. Uşaqlar böyüyür, böyüdükcə vətəndaşlığını, sahib olduğu milli mənsubiyyəti dərk edir. Dərk etdikcə Vətənini daha dərindən sevir, doğulduğu torpağı qorumaq onun mənəvi borcuna çevrilir. Uşaq yaşlarında "böyüyəndə əsgər olacam" deyib bu sırada sevinc və qürurla dayanan əsgər balalarımızın indi isə "Mən böyük qələbənin əsgəri olacam" demələrinə zərrəcə şübhəm yoxdur. Bir daha gənc əsgərlərimizə vətəndaşlıq borclarını layiqincə yerinə yetirməyi, ana torpağa ləyaqətlə xidmət etməyi arzu edirəm."

Gənc əsgər Elmir Qasımov bu günün onlar üçün əlamətdar olduğunu bildirdi. "Bu təntənəli gün bizim yaddaşımızdan heç vaxt silinməyəcək. Bizlər orduda xidmət etmək, Vətənin keşiyində durmaq, onun müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün Vətənimizə, xalqımıza sədaqət andı içdik. Bütün əsgər qardaşlarıma və ailələrinə göz aydınlığı verirəm. Müstəqil Vətənimizdə xidmət etmək, Azərbaycan Ordusunun əsgəri olmaq bizim üçün böyük fərəhdir."

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Müasir cəmiyyətdə dinin rolu və yeri. Azərbaycanda islami dəyərlərin bərpası. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.

**Suallar:**
**1. Müasir cəmiyyətdə dinin rolu və yeri.**
**2. Azərbaycanda islami dəyərlərin bərpası.**
**3. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.**

*Müasir cəmiyyətdə dinin rolu və yeri*

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən din dövlətdən, dövlət də dindən ayrıdır. Buna görə də dövlətin sosial, siyasi, iqtisadi və hüquqi fəaliyyətini müəyyən edən qanunlar qəbul edilərkən, dinin bu mövzudakı əmr və qadağalarına görə deyil, sosial ehtiyaclara görə edilir. Dövlət quruluşunun əsası olan dünyəvilik din və vicdan azadlığını dövlət tərəfindən təminat altına alır. Belə ki, o zaman həqiqi din azadlığı, ancaq dünyəvi bir dövlətdə reallaşa bilər. Çünki belə bir dövlətdə vətəndaşlar heç bir müdaxilə olmadan öz dinlərini seçə bilərlər. Dünyəvi bir dövlətdə din azadlığı, hər hansı bir dinə inanma və onun ibadətlərini yerinə yetirmə azadlığını təmin etdiyi kimi, vətəndaşların heç bir dinə inanmama və heç bir dinin ibadətlərini yerinə yetirməmə azadlığını da təmin edir. Dövlətin vətəndaşı ilə münasibəti dini və ideoloji deyil, ədalət çərçivəsində olmalıdır. Dövlətin əsas vəzifəsi, ədaləti, daxili və xarici təhlükəsizliyi təmin etmək, vətəndaşların haqq və azadlıqlarına əngəl olan problemləri aradan qaldırmaqdır. Bu səbəbdən də, dövlət bu gün ölkənin gələcəyi üçün lazım olan tədbiri görməkdədir. Yəni, dövlət vətəndaşlarını və cəmiyyəti zərərli, fanatik və radikal dini-siyasi qrup və təşkilatlardan qoruyur. Bu istiqamətdə dövlətin sekulyar dəyərləri və prinsipləri daha kəskin və aydın qoyulur.

Şərq müdrikliyi və qərb rasionallığından öz payını alan Azərbaycan, cəmiyyət olaraq multikultural və tolerant dəyərləri bu adlarla olmasa da, eyni mahiyyətdə olan digər anlayışlarla hər zaman yaşatmışdır. Bu baxımdan, multikulturalizm cəmiyyətdə bütün dinlər, millətlər, milli azlıqlar və mədəniyyətlərin bir arada tolerant münasibətlər içərisində birgə yaşayışıdırsa, o zaman Azərbaycan nümunə olacaq multikultiral bir ölkədir. Azərbaycanda din-dövlət, eyni zamanda cəmiyyət-dövlət münasibətləri milli-mənəvi dəyərlərlə yanaşı, həm də universal və multikultural dəyərlərə əsaslanan azərbaycançılıq ideologiyası kontekstində tənzimlənir. Bu baxımdan, cəmiyyətə sağlam təfəkkürlü vətəndaş qazandırmaq üçün dərin dini-fəlsəfi dünyagörüşünə, bədii-etik təfəkkürə və yüksək estetik zövqə malik olan insan yetişdirmək lazımdır. Bu da dövlətin düşünülmüş, planlı və uzaqgörən siyasətinə əsaslanan proqramın tərtib olunmasına və onun həyata keçirilməsinə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev cəmiyyətdə dinin böyük rolu və yeri olduğunu öz çıxışında belə qeyd etmişdir: "Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin tətbiqi və təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir. Bütün bunlar müasir mərhələdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, demokratik dünya birliyi ilə əməkdaşlıq münasibətlərinin prioritet xəttini təşkil edir. Ölkəmiz bu sahədə nüfuzlu beynəlxalq və regional təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında uğurla fəaliyyət göstərir. Son illərdə MDB Dinlərarası Şurasının, MDB müsəlmanlarının Məşvərət Şurasının, Qafqaz xalqları Ali Dini Şurasının toplantılarının, xüsusən dünya dini liderlərinin sammitlərinin Bakıda keçirilməsi Azərbaycandakı dini sabitliyi, tolerantlıq mühitini, əqidə və ifadə azadlığını bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirmişdir. Azərbaycan dövləti dinlərarası dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bundan sonra da dəstəkləyəcəkdir".

*Azərbaycanda islami dəyərlərin bərpası*

Respublikamızda dünyəvi dövlət şəraitində dövlət-din münasibətlərinin tənzimlənməsi, dini-mənəvi dəyərlərin pozitiv potensialından səmərəli və məqsədyönlü istifadə olunması ilə bağlı görülən böyük işlərin mahiyyətini düzgün başa düşmək üçün müstəqillik dövrünün ilk illərində ölkənin dini durumuna ani olsa da nəzər salmaq labüddür.

Milli müstəqilliyin ilk illərində Azərbaycan cəmiyyəti üçün həyatın bütün sahələrində olduğu kimi, din sahəsində də müəyyən pərakəndəlik səciyyəvi idi, 70 illik sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə çox iş görülmüşdü. İfrat dərəcədə ideolojiləşdirilmiş stereotiplər bütövlüklə materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sisteminin yaradılmasına yönəldilmişdi. Bu sistem insanlara öyrədirdi ki, "Allah yoxdur, din mövhumat və xürafatdan başqa bir şey deyildir, axirət inancı yanlış inancdır, ancaq dünya həyatı var və insan öləndən sonra hər şey bitir". Sovet dövründə yaşayıb-böyümüş insan bu vaxta qədər alışmış olduğu ictimai yönümünü itirdi - çaşıb qaldı, nə edəcəyini bilmədi. Bəzilərində bu hal daha kəskin xarakter aldı. Dini ideyaya, hətta mistisizmə maraq artdı. Vəziyyətdən sui-istifadə etmək istəyənlər də az olmadı. Ölkədə qeyri-ənənəvi dinləri, destruktiv sektaları yaymaq məqsədi güdən bir sıra xarici missioner təşkilatların fəaliyyəti geniş vüsət aldı. Erməni təcavüzü nəticəsində ölkə ərazisinin böyük bir hissəsinin işğal edilməsi, bir milyonluq qaçqın və köçkünlər ordusunun yaranması ilə bağlı sosial gərginlik şəraitində bu hal, həqiqətən, cəmiyyətimizin, xalqımızın gələcəyi, onun müasir millətlər toplusuna daxil olması yolunda ciddi əngəllər törədirdi.

Ümummilli lider Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdanda cəmiyyətin dinə bağlılıq durumu mürəkkəb və ziddiyyətli idi. Bu cür çətin şəraitdən yalnız yüksək dövlətçilik təcrübəsi olan bir şəxs baş çıxara, vəziyyəti düzgün qiymətləndirib dönüş yarada bilərdi. Yalnız ulu öndər Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini inzibatçılığa yol vermədən, məqbul beynəlxalq standartlara müvafiq şəkildə öz təbii məcrasına qaytara bilər, dövlətin strateji xəttinə əsasən tənzim edə bilərdi. İlk növbədə din-dövlət münasibətlərində yaranmış uçurum aradan götürülməli, qarşılıqlı inam bərpa olunmalı, dövlətin anti-din, ateist siyasəti yeritməməsinə insanları inandırmalı, dinin həqiqətən də milli-mənəvi dəyərlərdə yerini müəyyən etmək tələb olunurdu. Bu asan və tezliklə həyata keçirilməsi mümkün olan iş deyildi. Hər şeydən əvvəl vəziyyətdə köklü dəyişiklik yaratmaq üçün problemə münasibət bildirməklə yanaşı, qanuni zəmin hazırlamaq lazım idi. Bu məqsədlə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respubikası Qanununda müəyyən dəyişikliklər edildi, bəzi maddələr ləğv, bəzisinə isə əlavələr edildi.

Ulu Öndər məscidlərə gedir, dini münasibətlərlə keçirilən mərasimlərdə iştirak edir, dindarlarla görüşür, dövlətin strateji xəttini özü şəxsən izah etməyə çalışırdı. Ümummilli Lider çıxışlarının birində bildirirdi ki, Azərbaycanın strateji yolu demokratik, hüquqi, dünyəvi dövlət quruculuğundan keçir. Əlbəttə, dünyəvi dövlətçilik prinsipi dövlətin dindən ayrılığını nəzərdə tutur. Lakin vətəndaş, bütövlükdə isə xalq və millət dindən ayrı deyildir.

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, tam qətiyyətlə deyə bilərik ki, bugünkü mənada beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz ümummilli lider Heydər Əliyevin xidmətləri sayəsində qurulmuşdur. Bu gün Azərbaycanda dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması ümummilli lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasət yürütməsinin və həmin siyasətin bu gün davam etdirilməsinin nəticəsidir.

*Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir*

Azərbaycan xalqı olduqca mühüm və bəşəriyyətə nümunə olan mənəvi keyfiyyətlərə malikdir. Bunlardan biri də əsrlərdən bəri formalaşaraq inkişaf edən, xalqımızın hümanist dünyagörüşünü özündə əks etdirən multikultural və tolerant dəyərlərdir.

Təsadüfi deyil ki, tarixin bütün dönəmlərində bu coğrafiyada müxtəlif etnoslar, xalqlar, ayrı-ayrı dinlərə sitayiş edən insanlar əmin-amanlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Tarixin bütün dövrlərində dünyanın dəmək olar ki, hər bir tərəfində milli və dini zəminlərdə qarşıdurmalar baş vermiş, insanlığa, bəşəriyyətə qarşı ağır cinayətlər törədilmişdir. Lakin Azərbaycanda yaşayan xalqlar arasında heç vaxt milli-etnik və dini zəmində ədavət baş verməmiş, bu məqsədlə kənardan edilən cəhdlər iflasa uğramışdır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkəmizdə mədəniyyətlər və dinlərarası dialoq keyfiyyətcə yeni mərhələyə yüksəldildi, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı. Ən əsası, bu, dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Ümummilli lider Heydər Əliyev haqlı olaraq multikulturalizm və tolerantlıq siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. Ulu Öndərin müəllifi olduğu Azərbaycan Konstitusiyasında ölkəmizdə dinindən, irqindən, dilindən asılı olmayaraq hər bir vətəndaşın hüquq və azadlıqları, o cümlədən insanların etiqad azadlığı təsbit olundu.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında xalqımızın multikultural və dini-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət yeni mərhələdə onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Dövlət başçısı mütəmadi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır, milli və dini bayramlarını təbrik edir. İlham Əliyev cənablarının Azərbaycan multikulturalizminin və tolerantlığının elmi əsaslarla öyrənilməsi, həmçinin dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar öz bəhrəsini verməkdədir.

2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli" elan olunması bu sahəyə diqqəti daha da artırır və eyni zamanda, dünyanı alternativi olmayan multikulturalizm və tolerantlıq siyasətindən daha effektiv şəkildə faydalanmağa dəvət edir. 2016-cı ilin "Multikulturalizm İli" elan edilməsi multikulturalizm və tolerantlığın Azərbaycan xalqının həyat tərzi olması ilə yanaşı, dövlət siyasətində də prioritet istiqamət olduğunun göstəricisidir.

Azərbaycanda yaşayan bütün millətlərin və dinlərin nümayəndələrinin dövlətçiliyimiz naminə daim həmrəylik nümayiş etdirmələri xalqımızın yüksək multikultural və tolerant dəyərlərə malik olmasının bariz nümunəsidir. Ölkəmizin inkişafı, qüdrətlənməsi ilə yanaşı, ərazi bütövlüyümüzün qorunmasında da burada yaşayan bütün xalqların və dinlərin nümayəndələri hər zaman qəhrəmanlıq və vətənpərvərlik nümunələri ortaya qoyublar. Biz 2016-cı ilin aprel ayının əvvəllərində bunun bir daha şahidi olduq. Cəbhə xəttində erməni təxribatlarına qarşı Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlarda ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri də əsl qəhrəmanlıq nümunələri göstərdilər. Onların arasında şəhidlik zirvəsinə ucalanlar oldu. Bir daha təsdiq olundu ki, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bu torpağı canı qədər sevir və uğrunda ölməyə hazırdır.

Təəssüflə qeyd edək ki, xalqımızın tolerantlıq keyfiyyətindən sui-istifadə edən, dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparan Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu təcavüzün qurbanları arasında tarixi-dini abidələrimiz, fərqli dini konfessiyaların və müxtəlif xalqların mənsubları da vardır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqımızın tolerantlıq keyfiyyətindən sui-istifadə edən, dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparan Ermənistanın hələ də Azərbaycana qarşı təcavüzünün davam etdiyini bildirib: "Əfsuslar olsun ki, bəzi tendensiyaları bizim regionda - Yaxın Şərqdə görürük. Azərbaycan nadir ölkələrdəndir ki, Avropa Şurası ölkələri və islam əməkdaşlıq ölkələri nümayəndələrini Bakıya toplayıb. Multikulturalizm dövlət siyasətimiz və həyat tərzimizdir. Azərbaycanda bütün azadlıqlar təmin edilir. Mətbuat azadlığı, sərbəst toplaşmaq, dini, söz azadlığı təmin edilir. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqları işğal edildi. Bunun nəticəsində 1 milyondan çox qaçqınımız var. Baxın görün, biz Bakıda erməni kilsəsini bərpa etmişik. Lakin bizim işğal olunan ərazilərdə məscidlərimiz dağıdılıb".

Dövlət, vətəndaşlarının dini-fəlsəfi dünyagörüşünün, bədii-etik təfəkkürün və estetik zövqün formalaşdırılması üçün düşünülmüş dövlət siyasəti həyata keçirir. Bu anlayış və konsepsiyaların ən mühümü multikulturalizmdir. Multikulturalizm bu gün, məhz Azərbaycanın dövlət siyasəti olaraq təyin edilmişdir. Hansı ki, multikulturallıq bir ölkədə dini, cinsi, etnik və milli müxtəlifliklərin qorunması və inkişafına yönəlmiş siyasətdir. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir" - deyərək multikulturalizmi Azərbaycanın dövlət siyasəti olmasını təsadüfün deyil, əksinə qədim dövrlərdən üzü bu yana xalqımızın həyat tərzi kimi xarakterizə etmişdir. Çünki Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemi tolerant münasibətlər içərisində birgə yaşayış ənənəsi Azərbaycan xalqının formalaşdığı bütün dövrlərdə müşahidə edilmişdir. Bu tendensiya Azərbaycan xalqının sahib olduğu dəyərlər sisteminin bütün nümunələrində əsas istiqamətlərdən biridir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Gəncənin tarixi abidələri ilə tanışlıq ön xətdə xidmət edən əsgərlərin marağına səbəb olub

*Gəncə Qarnizonu Zabitlər Evinin "Vətən Uğrunda" səyyar təşviqat dəstəsinin təşkilatçılığı ilə "N" hərbi hissəsinin əsgərlərinin Gəncə şəhərinə ekskursiyası təşkil edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ekskursiya çərçivəsində hərbi qulluqçular "Qala Qapıları Arxeologiya və Etnoqrafiya Muzeyi", "Nizami məqbərəsi", "Nizami Muzeyi", "Məhsəti Mərkəzi" və "Gəncə Tarix Diyarşünaslıq Muzeyi" ilə yaxından tanış oldular.



Əsgərlərə Gəncə şəhərinin tarixi, ziyarət etdikləri muzeylərin ekspozisiya zalında qorunan eksponatlar, Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin əsərləri haqqında ətraflı məlumatlar verilib.

# Hərbi hissədə radio-qəzet

26 il bundan əvvəl başlayan 3 mart 2018-ci ildə 26 illik dövrəsini tamamlayıb yenisini cızaraq daha da qiymət qazanan, özündə böyük bir tarixçəni yaşadan, taleləri, hadisələri, xatirələri, özünə ömür edən, Vətənə, torpağa bağlı bir yaşam - "N" hərbi hissənin həyat tarixçəsi. Bu tarixçədə, qəhrəmanlar var, qəhrəmanlıqlar var, torpaq uğrunda canlarından keçənlər var, heykəlləşənlər var. 26 il söz olaraq bu hərbi hissənin tarixçəsinə sığmır deyəsən. Məzmun kimi sevinc var, bu rəqəmlərdə iftixar, qürur var, şəhidlərə görə qəhər var. Hər şeyin fövqündə dayanan bir hisslə irəliləyiş, yüksəliş ruhu, güc və bacarıq məzmunu var. Dünyanın ən çətin işi olan müharibədə iştirak belə təlatümlərlə də dövrələnir. Necə deyərlər, yaradılan kimi döyüşdə iştirak edən bölmələr nələrlə qarşılaşmalıydı. Döyüşlər, qəhrəmanlıqlar, şəhidlər... "N" hərbi hissəsi belə hərbi hissələrdəndir. Gənc əsgər, sən bu hərbi hissədə xidmət edəcəksən, qürurlanacaqsan. Hərbi hissənin qəhrəmanlarını özünə örnək biləcəksən. Sən də onun şöhrətinə şöhrət gətirənlərin sırasında olacaqsan...

Fotolar sanki dondurub saxlaya bildiyimiz keçmişimizdi. Müharibədə tərk edilmiş bir kəndin "foto camaatından" ovsunlu heç nə yoxdur. Şəkillər məzlum-məzlum divarlardan boylanır. Bir tərəfi yanmış fotoşəkillər. His basmış simalar. Burda hər mənə var. Məlumat, sevgi, sayqı, kədər, sonsuzluq. Ölüm də var. Hər fotonun öz tarixçəsi var, amma onlarla sən danışa bilməyəcəksən. Onlar danışacaq, sən dinləyəcəksən. Amma bir foto səni tutacaq. Bəlkə də heç vaxt unutmayacaqsan. Səni həyatın boyu izləyəcək. Başqasının şəkli olsa da. Tanış sifətlərə çevriləcək. Tanış sifətə çevirdiyi insanlar kimi. Həmin şəkildən və sənin gözlərindən əks olunan röya bir fokusda birləşəcək.

Bir röya da var. O da birlik komandirinin fikrində, ürəyində, dilindədir. Torpaqlarımızı işğaldan azad etmək. Bu onun üçün ən böyük amaldı. Bizə də sirayət edib, könlümüzün sultanına çevriləcək. Qəhrəman olmağa səsləyir hərbi hissəni: Siz qəhrəmanlıq ənənələrinə sahib olan bir varissiniz. Hərb tarixinizdə xüsusi yeriniz var. Biz hamımız bir arzu ilə yaşayırıq. Vətəni azad etmək. Gələn ildönümünü azad edilmiş yurd-yuvamızda qeyd edək. Bu, hamını düşündürməlidir. Hər an Vətənin müdafiəsinə hazır olmalısınız.

Bütün şəxsi heyət də belə deyir:

- Əngəl tanımaz aşarıq,
Dırmaşarıq dağlara.

Ağdama, Füzuliyə, Qubadlıya, Cəbrayıla, Laçına, Şuşaya, Xankəndiyə, Ağdərəyə, Xocalıya, Zəngilana, Kəlbəcərə, Xocavəndə gedirik. Oralarda da dövlət bayrağımız dalğalanacaq! Biz dalğalandıracağıq!.. Sən belə bir hərbi hissənin əsgərisən, əsgər!..

**Polkovnik-leytenant Zakir HÜSEYNOV, "N" hərbi hissəsi**

**Redaksiyadan:**

*"N" hərbi hissəsində şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi baxımından həyata keçirilən yeni metodlar diqqətə layiqdir. Radio-qəzet hərbi qulluqçuların informasiyayla operativ və dolğun təmin olunmasında mühüm bir vasitədir. Onun digər hərbi hissələrdə də tətbiq edilməsi səmərəli olardı.*

*Hərbi texnikalar, silahlar*

# ORSİS T-5000 snayper tüfəngi




Yüksək dəqiqliyə malik ORSİS T-5000 snayper tüfəngi Moskvada yerləşən "Promtexnologiya" sənaye qrupunun "ORSİS" silah zavodunda hazırlanıb. 2011-ci ildə Nijni Taqildə Beynəlxalq Silahlanma sərgisində nümayiş etdirilib. 2016-cı ildən istehsal edilir. Bu silah xüsusi olaraq hüquq-mühafizə bölmələri, təhlükəsizlik xidməti, həmçinin xüsusi ordu snayperləri üçün hazırlanıb. Snayper tüfəngi 1600 metrlik məsafədə yerləşən düşməni məhv edə bilir. Silahdan günün bütün vaxtlarında, müxtəlif hava şəraitində atəş açıla bilər. Tüfəngin qutuvari maqazini beş və ya on ədəd 7,62x51 mm kalibrli patron tutur. Snayper tüfəngi ORSİS T-5000 əllə təchiz olunur. Snayper tüfənginin çəkisi 6,1-6,3 (308 Vinçester), 6,5 (Lapua Maqnum), gövdəsinin uzunluğu 508-673 (308 Vinçester), 698,5 (338 Laqua Maqnum), kalibri 7,62x51 mm (308 Vinçester), 7,62x67 mm (300 Vinçester Maqnum), 8,6x70 mm (338 Laqua Maqnum), güllənin ilkin sürəti saniyədə 925 metr, nişangah uzaqlığı 1000 və ya 1500 metrə qədərdir.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Donald Tramp "F-35" qırıcı təyyarələrinin Türkiyəyə təhvil verilməsini təxirə salan qanunu təsdiqləyib



ABŞ Prezidenti Donald Tramp beşinci nəsil "F-35" qırıcı təyyarələrinin Türkiyəyə təhvil verilməsini təxirə salan 2019-cu il üçün müdafiə büdcəsi qanununu təsdiqləyib.

Sənədə əsasən, Türkiyənin "F-35" proqramından tamamilə çıxarılıb-çıxarılmayacağına dair hazırlanacaq hesabata qədər qırıcı təyyarələrin bu ölkəyə təhvil verilməsi dayandırılır.

ABŞ Müdafiə Nazirliyi isə 90 gün ərzində iki ölkə arasındakı əlaqələrə dair hesabat hazırlamalıdır.

Qeyd edək ki, Türkiyə ABŞ-dan ən azı 100 ədəd "F-35" təyyarəsi almaq istəyir. Artıq onun 30-nu sifariş verib. Nüvə başlıqları daşıya bilən çoxməqsədli "F-35" hərbi təyyarələri "stealth" texnologiyasından istifadə edilməklə hazırlanıb. Onun hazırlanmasında ABŞ-la yanaşı 8 ölkə - Avstraliya, Böyük Britaniya, Danimarka, İtaliya, Kanada, Niderland, Norveç və Türkiyə də iştirak edib.

## Türkiyədə daha bir təhlükəli terrorçu məhv edilib



Türkiyənin təhlükəsizlik qüvvələrinin keçirdiyi antiterror əməliyyatı nəticəsində Vehbi Taş adlı daha bir PKK terrorçusu məhv edilib. "Serkeft Şiyar" ləqəbi ilə fəaliyyət göstərən bu təhlükəli terrorçu avqustun 7-də Şırnakda keçirilən antiterror əməliyyatında zərərsizləşdirilib.

O, həmin əməliyyatda məhv edilən 5 terrorçudan biridir.

## İŞİD lideri ağır yaralanıb



İŞİD qruplaşmasının rəhbəri Əbu Bəkr əl-Bağdadi İraq Hərbi Hava Qüvvələrinin Suriyada keçirdiyi əməliyyat nəticəsində ağır yaralanıb.

Bu barədə İraq kəşfiyyatında olan mənbə bildirib. Onun sözlərinə görə, əl-Bağdadi qruplaşmanın qərargahında olan zaman İraq aviasiyasının zərbəsinə məruz qalıb. Reydin iyun ayında keçirildiyi bildirilsə də, məkan göstərilməyib. Məlumatda qeyd olunur ki, silahlıların bir hissəsi onun yerinə Əbu Osman ət-Tunisinin namizədliyini irəli sürüb ki, bu da qruplaşmanın sıralarında parçalanmaya səbəb olub.

Xatırladaq ki, əl-Bağdadi son dəfə 2014-cü ildə İraqın Mosul şəhərində cümə xütbəsi zamanı kütlə qarşısında çıxış etmiş və Yaxın Şərqdə "xilafətin" yaradıldığını elan etmişdi. Ötən il sentyabr ayının sonlarında isə İŞİD silahlıları arasında onun səs yazısı yayılmışdı.

ABŞ əl-Bağdadinin ələ keçirilməsinə və ya öldürülməsinə yardım edəcək hər hansı informasiyaya görə 25 milyon dollar mükafat təyin edib.

## Misirdə 6 terrorçu məhv edilib



Misirin Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, Qahirə yaxınlığındakı "6 oktyabr" şəhərində terrorçularla polislər arasında atışma zamanı 6 terrorçu məhv edilib. Onlar Qurban bayramı günlərində xristian kilsəsinə, həyati vacib əhəmiyyətli obyektlərə və güc strukturlarının nümayəndələrinə terror hücumu planlaşdırıblar.

Bəyanatda hüquq-mühafizə orqanlarına "6 oktyabr" şəhərində evlərdən birində ekstremistlərin yerləşməsi barədə məlumatın daxil olduğu qeyd edilir. Həmin yerə gedən polislərə atəş açılıb. Cavab atəşi nəticəsində terrorçuların hamısı məhv edilib.

**AZƏRTAC-ın materialları əsasında**

Məişət

# Hərbi hissələrdə ana qayğısı

*"N" hərbi hissəsində ezamiyyətdə olarkən əsgərlərin məişət şəraiti ilə yaxından tanış olmaq məqsədilə zabit Hafiz Rəhimovla yeməkxanaya yollanırıq. "Əsgərlərin mənəvi-psixoloji hazırlığı, döyüş ruhu nə qədər yüksək olsa, ordunun döyüş hazırlığı da bir o qədər yüksək olar. Bunun üçün ən vacib şərtlərdən biri şəxsi heyətin məişət şəraitinin və təminatlarının qaydasında olmasıdır. Təminatlar arasında isə düzgün qidalanma əsas şərtdir. Keyfiyyətli ərzaqlarla qidalandıqda orqanizm güclü, sağlam və enerjili olur. Bu gün şəxsi heyətin qida rasionuna yüksək kalorili qidalar daxil edilib. Əsgərlərimiz təcrübəli aşpazlar tərəfindən hazırlanan milli xörəklərlə qidalanırlar. Yeməkxananın girişində qida rasionuna diqqət yetirsəniz, orada fəslə uyğun olaraq bütün qida növlərinin adını görə bilərsiniz. Qida təminatının yüksək olması ilə yanaşı, burada çalışan aşpazların da bacarığı nəticəsində əsgərlərimiz evlərində olduğu kimi, dadlı və yüksək kalorili yeməklərlə qidalanırlar", - kapitan H.Rəhimov deyir.*



Yeni tikilmiş yeməkxananın dizaynı göz oxşayır. Girişdə yerləşən əlyuma yeri, salondakı səliqə-sahman, maraqlı təbiət təsvirləri, böyük ekranlı müasir televizor, yeni mətbəx avadanlıqları və s. diqqətimizi cəlb edir. Günün nizam qaydasına uyğun olaraq şəxsi heyətin nahar vaxtı çatır. Cavabdehlərin rəhbərliyi ilə bölmələr yeməkxananın qarşısında nəzərdə tutulmuş yerdə düzülürlər. Hərbi hissə növbətçisi şəxsi heyəti yoxladıqdan sonra "nuş olsun" deyərək, içəri daxil olmaları üçün komanda verir. Sıra ilə yeməkxanaya daxil olan əsgərlər əvvəlcə əllərini yuyub qurutduqdan sonra xörək paylanılan yerə yaxınlaşırlar. Yeməklərini götürdükdən sonra nizamla stola əyləşirlər. Bu proseslərin hamısına cavabdehlərlə yanaşı, yeməkxana növbətçisi də nəzarət edir. Bu günün menyusunda küftə, vermişel süzməsi, mərcimək şorbası, çoban salatı və meyvə şirəsi olduğunu görürəm.

Əsgərlər yeməklərini götürüb yerlərinə əyləşdikdən sonra fürsət tapıb səliqəli formaları və gülər üzləri ilə yeməkxanaya gələn hər kəsdə müsbət aura yaradan aşpazlarla həmsöhbət oluram. İlk həmsöhbətim iki əsgər anası Yeganə Məhərrəmova olur. "Oğullarımın ikisi də hərbi xidmətdədir. Buradakı əsgərləri onlardan ayırmıram, hamısı bizim övladlarımızdır. Əlimizdən gəldiyi qədər dadlı yeməklər bişirməyə çalışırıq ki, övladlarımız yaxşı qidalansınlar, sağlam olsunlar. Nə qədər sağlam olsalar, Vətənimizi o qədər inamla qoruyarlar. Vətən qoruyucularına xidmət etməkdən hər birimiz qürur duyuruq. Bura bizim üçün təkcə iş yeri deyil, eyni zamanda, Vətənə xidmət edənlərə xidmət yeridir", - Yeganə xanım deyir.



Bildiyimiz kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişi ilə bütün hərbi hissələrdə qadın aşpazlar yeməkxana işlərinə cəlb ediliblər. Bunun nəticəsidir ki, əsgərlərimizə milli mətbəximizin gözəl təamlarından bişirilir. Vətən keşikçiləri eynilə evlərində olduğu kimi ana əlləri ilə hazırlanan yeməklərlə qidalanırlar. Həmin analardan daha biri ilə söhbətləşirəm. Beş ildən çoxdur burada çalışan zəhmətkeş ana Sahibə Dadaşova oğlunun Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı olduğunu bildirir:

- Oğlumun ən böyük arzusu hərbçi olmaqdır. Halhazırda kursantdır. Fəxr edirəm ki, oğlum bu şərəfli peşəni seçib. Burada çalışanların hər biri təcrübəli aşpazdır. Qida rasionuna uyğun olaraq əsgərlərimizə keyfiyyətli və dadlı yeməklər bişirilir. Həmçinin fəslə uyğun meyvələrdən şirə hazırlayırıq. Əsgərlərin hər biri doğma balamızdır. Onların yaxşı qidalanması üçün əlimizdən gələni əsirgəmirik. Uzun müddətdir hərbi hissədə çalışan biri kimi valideynlərə üzümü tutub əminliklə deyə bilərəm ki, övladlarınız əmin əllərdədir. Onlara öz balalarımız kimi qulluq edirik.

Aşpazlardan Sevinc Nəsibova, Yaqut Məmmədova, Nahidə Həsənova, Sevda Məmmədova və digərləri də hərbi hissəni öz evləri kimi gördüklərini və əsgərlərə doğma övladları kimi xidmət etdiklərini bildirirlər.

Fürsət tapıb bir neçə əsgərin düşüncələrini də öyrənirəm. Hansı stola yaxınlaşıram, razılıq dolu sözlər eşidirəm. Əsgərlər Elmar Ağayev, Samir Verdiyev, Şükür Hacıyev, İbrahim Novruzov və başqaları dadlı yeməklər bişirdikləri üçün aşpazlara minnətdarlıqlarını bildirirlər. "Eynilə evimizdə olduğu kimi dadlı yeməklərlə qidalanırıq. Dolma, küftə, plov və digər milli xörəklər hazırlayırlar. Belə yüksək qayğının qarşılığında biz də nümunəvi xidmət etməliyik. Minnətdarlığımızı öz xidmətimizlə ödəməliyik. Hərbi hissədə yüksək məişət şəraitinə görə Ali Baş Komandanımıza, Müdafiə nazirimizə və bizə dadlı yeməklər hazırlayan analarımıza təşəkkürümüzü bildiririk", - əsgərlər deyirlər.

Bu ezamiyyətim zamanı bir daha şahidi oldum ki, ölkə başçısının və ordu rəhbərliyinin diqqət və qayğısı nəticəsində əsgərlərin məişət şəraiti tamamilə yaxşılaşdırılıb, şəxsi heyətin sosial təminatları yüksək səviyyəyə çatdırılıb. Hansı şəraitdə xidmət etməsinə baxmayaraq əsgərlər qida, ərzaq, geyimlə tam şəkildə təmin olunublar. Belə yüksək diqqət və qayğı isə şəxsi heyətə sağlam mənəvi-psixoloji ruh aşılayır və onların döyüş əzmini daha da artırır. Artıq əsgər anaları da tam şəkildə əmindir ki, müasir ordumuzda övladlarının xidmət etməsi üçün hər cür şərait yaradılıb.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# İdman

## Azərbaycan atleti Berlində keçirilən Avropa çempionatında gümüş medal qazanıb



Azərbaycan yığması Berlində keçirilmiş atletika üzrə Avropa çempionatında ilk medalına sahib olub.

Üçtəkanla tullanma yarışının finalında idmançılarımızdan Aleksis Kopello gümüş medala layiq görülüb. O, 16,93 metr nəticə göstərib. Portuqaliyalı Olimpiya və dünya çempionu Nelson Evora 17,10 metr göstərici ilə Avropa çempionu adını qazanıb. Yunanıstanlı atlet Dimitrios Tsiamis 16,78 metr göstərici ilə bürünc medala yiyələnib.

Azərbaycanın digər idmançısı Nazim Babayev isə 16,76 metr nəticə ilə yunanıstanlı rəqibindən cəmi iki santimetr geri qalaraq dördüncü sırada qərarlaşıb.

Xatırladaq ki, atletlərimiz turnirdə məşqçilər Ziyad Xəlfəyevin və Artyom Rubankonun rəhbərliyi ilə mübarizə aparıblar.

## SSRİ-də karatenin 40 illiyinə həsr olunan doqquzuncu “Baku Open” beynəlxalq turniri keçiriləcək




Sentyabrın 28-30-da Azərbaycanda karate üzrə ənənəvi "Baku Open" turniri keçiriləcək.

Doqquzuncu dəfə təşkil ediləcək yarış keçmiş Sovet Sosialist Respublikaları İttifaqında karatenin 40 illik yubileyinə həsr olunur.

Turnirdə keçmiş SSRİ-nin müxtəlif respublikalarından tanınmış veteran karate ustaları iştirak edəcəklər.

Bakı İdman Sarayında təşkil ediləcək yarışda uşaqlar, yeniyetmələr, gənclər, böyüklər və veteranlar mübarizə aparacaqlar.

Turnirin açılış mərasiminin sentyabrın 29-da keçirilməsi nəzərdə tutulur.

## Şəhriyar Məmmədyarov “Grand Chess Tour” mərhələsində ikinci yerdədir

SAINT LOUIS RAPID &BLITZ

ABŞ qrossmeysteri Fabiano Karuana "Grand Chess Tour" seriyasının ABŞ-ın Sent-Luis şəhərində oynanılan üçüncü mərhələsində müvəffəqiyyətlə start götürüb.

Rapid üzrə keçirilən 6 turdan sonra dünya çempionu adına namizəd amerikalı şahmatçı aktivinə 12 mümkün xaldan (xalların ikiqat hesablanması) 9 xal yazdıraraq turnir cədvəlinə başçılıq edir. Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov və daha üç şahmatçı liderdən 2 xal geridədir.

"Grand Chess Tour"un üçüncü mərhələsində iştirakçıların mövqeyi belədir: Fabiano Karuana - 9 xal, Şəhriyar Məmmədyarov, fransız Maksim Vaşye-Laqrav, rusiyalı Sergey Karyakin, amerikalı Hikaru Nakamura hərəyə 7 xal, kubalı Lenyer Dominqes - 6 xal, erməni Levon Aronyan - 5, hindistanlı Vişvanatan Anand, rusiyalı Aleksandr Qrişşuk, amerikalı Uesli Co isə hərəyə 4 xal toplayıblar.

Bu gün son üç tur keçiriləcək.

Xatırladaq ki, "Grand Chess Tour 2018"in üçüncü mərhələsi sürətli şahmat və blits formatında aparılır.

Turnirin ümumi mükafat fondu 150 min dollar təşkil edir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 523
Nüsxə 3525